Ədalət 2019.- 19 noyabr.- S.8.

# DEYİMLƏR



*Məhərrəm Şəmkirli*

## *Ağaclarla, güllərlə*

**Soruşdu, çoxdandır görünmürsən, haralardasan? Bağdayam,- dedim. Neynirsən orda? Ağaclarla, güllərlə dostluq edirəm. Həmsöhbət axtaranda kiminlə danışırsan? Ağaclarla, güllərlə. Onlarla nədən danışırsan? Ağaclarla bardan,bəhərdən, güllərlə təravətdən,ətirdən. Dedi,vallah,dəlisən. Təbiətlə təməsda olana dəli deyən adamın ağlına şübhə elədim.**

## *Dağ çayı*

Nərildəyən, güruldayan dağ çayına baxmaq üçün onun qırağına gəldim.

Sular dağlardan qopardığı qaya parçalarını, qurumuş kötükləri, kəsilmiş və torpağın dərinliklərinə kök ata bilməmiş ağacları, selinə duruş gətirə bilməyən çöl heyvanlarını qabağına qatıb aparırdı.

Suların səsində qayaların,ağacların iniltisini, heyvanların fəryadını eşidirdim.

Onları xilas edəcək gücdə deyildim.

Bir anlıq özümü yağışdan sonra gür-gür guruldayan, nərnər nərildəyən çayın selində hiss elədim. Və öz- özümə: Həyatda köməksizlik elə həyatın sonuymuş ki.

## *Mənəviyatı üstələyən madiyyat*

**Uzun illər gedə bilmədiyim kəndimə getmişdim. Ürəyimdən kəndin başı papaqlıları ilə görüşüb, dərdləşmək keçdi. Atayla oğlun, qardaşla qardaşın, qonşuyla qonşunun arasındakı quş qonmaz hasarların küçəyə açılan darvazalarından başı papaqlıların çölə çıxdıqlarını görmədim. Darıxdım,sıxıldım, həyətdən doqqaza çıxdım. Qarşıma çıxan bir uşaqdan kəndin başı papaqlılarını soruşdum. Uşaq: Uzaq- uzaq- uzaq yerlərə çörək dalınca gedib-lər,- dedi.**

Düşündüm: madiyyat olmayan yerdə mənəviyat axtarmaq necə də gülüncmüş İlahi!

## *Ağac çılpaqlığından utanacaq*

Bu ağacdan son yarpaq da düşəcək. Ağac çılpaqlığından utanacaq. Utana- utana yazı gözləyəcək. Yaz gələcək, yaşıl libasa bürünəcək. Çiçək açacaq, meyvə gətirəcək. Daha utanmayacaq.

Başını uca tutacaq. Yenə payız gələcək, yenə soyuq güləklər əsəcək.

Son meyvəsi kimi, son yarpağı da düşəcək. Yenə çılpaqlığından utanacaq. Bir gün bəlkə də elə çılpaq öləcək, ya da yaşıl- yaşıl kökündən kəsiləcək.

## *Bayram gəlir*

**Gənc şairə dedilər, qarşıdan bayram gəlir. Bilirik sevdiyin var. Nə alacaqsan ona? Dedi, kitablarımdan birini ona hədiyyə edəcəm. Dostları qəhqəhə çəkib güldülər,ələ saldılar onu. Dedilər, nə danışırsan, qorxmursan? Kitab başına çırpılar, gerdə qalmış kimi damğalanarsan.**

Gənc şair hardasa oxumuşdu: qonşu Dağıstanda analar qızlarının cehizinə Rəsul Həmzətovun ”Mənim Dağıstanım”ı, Gürcüstanda Şota Rustavelinin ”Pələnk dərisi geymiş Pəhlivan”kitablarını da əlavə edirlər.

O,xeyli düşündü və acıacı:Niyə qonşu qızları kitabı ər evinə cehiz kimi aparır,bizdə hədiyyə kimi etmirlər?-dedi.

## *Ad oldu*

Igid əsgər Vətənin xilasını düşündü,sən iaşə ocağın üçün ad.O da arzusuna çatdı,sən də.O,vuruşdu şəhid oldu.Onun canı bahasına aldığı torpağ sənin iaşə ocağın üçün ad oldu.

Cismi ölənlərin ruhu,ruhu ölənlərin cismi yaşayır.

Halalla haramın,murdarla təmizin fərqini bilsən heç zaman yediyini qaytarmazsan.

İnsanın bircə dəfə əyilməyi ömrlük alçalmağıdır.

Dədəmiz Qorqud bizə ad da verdi, öyüddə.Nə adı doğrultduq, nə də öyüdə əməl elədik.

İndi deyirsən sən olan yerdə mən gülü qoxlayım?

Mən səni salxım söyüdün altında gözləyəcəm. Sən gəlsən də, gəlməsən də. Amma gəlsən daha gözəl olar.

Torpaq minnətsizdir. Elə minnətsizdir ki, üstündə gəzdirdiyinə öləndə altında da rahat yer verir.

Yüz illərdi erməni torpağımızı basa-basa irəliyir, biz geri çəkilirik.

Mən öləndə gözümə tökməyə yurd torpağını hardan tapacaqsınız?

O özünü təmənnasız kimi göstərir, amma hər kəsdən təmənna umur.

Mərhəmətini göstər, bilim qəddar deyilsən.

Kiçik xalqlar böyük xalqların diqtəsi ilə yaşayır.

Ləyaqətli adamlar qəbahətlərini etiraf etməyi bacarırlar.

Sənin geri dönməyinə baxmayaraq, mən yenə dörd divar arasında tənha yaşayıram.

Mənim ölüm günümü unutmazsan, o sənin azadlıq tarixin olacaq.

Başım özümə elə qarışıb ki, səni xatırlaya bilmirəm.

Görəsən dünyada sevib sevilməkdən yorulub usanan varmı?

Məmurun yalan danışmaq ehtiyacı var.Yoxsa vəzifəsini itirər.

Görəsən insan ilk səsi eşidəndə diksinibmi?

Məni boğaza yığma, abrımdan keçə bilərəm.

Mən səhv eləməyi bacardım. Amma sən bağışlamağı bacarmadın.

**Dediyiniz sözdə həqiqət yükü yoxsa onu deməndən.Allahdan qorxun.**

**Nəbalətliyim, naşılığım sevgidə aldatdı məni.**

**Yaltaqlıq simasızlığın ən iyrənc növüdür.**

**Bir şair qadın dedi, mənə elə belə baxman.Mən türk türkcəsində, iran farscasında da şeirlər yazıram.Dedim hələ şeirlərinizi oxumamışam. Sizə adi qadın kimi baxıram.**

**Ən böyük dərd odur ki, birinə ”can” deyəsən, o sənə ”çor” deyə.**

Sən uğurlar qazan sevinmək bizdən.

Dedin sevirəm, dedim əzabın mübarək!

Adını pıçıldadım dodaqlarım üşüdü.

Qadınına xəyanət elədin, canın cəhənnəm. Ay zalım, bəs Vətənə niyə xəyanət elədin, axı o təkcə sənin deyil.

”Mən bəşəri insanam”deyib sinənə döymə. Sən milli ola bildin ki.

Üzümdəki işığa nur deyirsən. Onu atamın kasıb komasından almışam.

Dodaqlarındakı şirin təbəssüm sənin görünən zənginliyindir.

Ürəyimlə davam var. O məni sevməyəni sevir.

Tarixin ayıblı məqamları var. Onu dilə gətirəndə başımızı aşağı salırıq.

**O dedi mənə qadağa yoxdur. Soruşdular, sən Allahın bacısı oğlusan? Qayıtdı ki, yox, mən elə Allahın özüyəm.**

**Qarabağ döyüşlərində ölməyən oğulları xırda buynuzlu məmurların özbaşnalığı öldürdü.**

**Tarixi yaddaşını itirən millətin gələcəyi yoxdur.**

**”Azərbaycan deyəndə”ayağa durmayanların cəsarətsizliyindən,qorxaqlığından param-parca oldu Azərbaycan.**